"AUDIT EXPERT TV" MMC
AZ1025, Bakı şəh.
Babək pr. 32 k
Tel: +99450 499 57 35
auditor.vidadi@gmail.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## " ATİLLA TRANS SERVİCES A " Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə

**Şərti müsbət rəy**

Biz "ATİLLA TRANS SERVİCES A" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2024-cii il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından və izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Şərti müsbət rəy üçün əsaslar**

Cəmiyyət maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarında müəyyən edilmiş formalara müvafiq tərtib etməlidir. Təqdim olunmuş hesabatın həmin sənədlərə tam müvafiqliyi təmin olunmalıdır. Biz audili Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesaballarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət pιinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"AUDİT EXPERT TV" MMC-nin auditoru** **V.M.Talıbov**
**İcazə № AT/291 verilib 22 yanvar 2024-cü il.**

**Bakı şəhəri, Azərbaycan Respublikası**
**07 aprel 2025-ci il**

**Rəy AR Auditorlar Palatasında e9hTnES9s6 № ilə qeyd alınmışdır.**

**"ATİLLA TRANS SERVİCES A" QSC**
**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**
***31 dekabr 2024-cü il tarixinə***

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2024 il | 31 dekabr 2023-ci il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq tikili və qurğular | 7 | 543 343,15 | 584 239,95 |
| Maşınlar və avadanlıq | | 21 942,30 | - |
| Nəqliyyat vasitələri | 7 | 18 206 360,08 | 11 806 748,59 |
| Qeyri-maddi aktivlər | 8 | 3 636,00 | 4 848,00 |
| Yüksək texn.məhsulu olan hesablama texnikası | 7 | 11 547,87 | 15 397,16 |
| Digər əsas vəsaitlər | 9 | 16 876,80 | 16 911,84 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **18 803 706,20** | **12 428 145,54** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 10 | 550 915,73 | 630 567,06 |
| Qısamüddətli debitor borcları | 11 | 1 013 356,44 | 655 271,99 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 53 772,28 | 66 986,87 |
| Sair aktivlər | | 25 726,75 | 37 843,66 |
| Sair qısamüddətli aktivlər | 12 | - | - |
| **Cəmi qısamüddətli aktivlər** | | **1 643 771,20** | **1 390 669,58** |
| **CƏMİ AKTİVLƏR** | | **20 447 477,40** | **13 818 815,12** |
| **KAPİTAL** | | | |
| Səhmdar (nizamnamə) kapitalı | 19 | 2000,00 | 2000,00 |
| Kapital ehtiyatları | 20 | - | - |
| Xalis mənfəət | | 55 345,03 | 44 374,88 |
| Bölüşdürülməmiş mənfəət (ödənilmmiş zərər) | | 100 447,53 | 56 072,65 |
| **CƏMİ KAPİTAL** | | **157 792,56** | **102 447,53** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Faiz xərcləri yaradan qısamüddətli öhdəliklər | 15 | 2 283 853,25 | 2 195 779,94 |
| Alınmış avanslar | 18 | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | | |
| Sair kreditor borcları | 15 | 18 005 831,59 | 11 520 587,65 |
| Gələcək dövrün gəlirləri | | | |
| Sair qısamüddətli öhdəliklər | 18 | | |
| **Cəmi öhdəliklər** | | **20 289 684,84** | **13 716 367,59** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **20 447 477,40** | **13 818 815,12** |

ATİLLA TRANS SERVİSES A

Xəlilzadə İsmayıl Xeybər oğlu
Qanuni təmsilçi
18 mart 2025-ci il

*10-24-cı səhifələrdə göstərilən Şərhlər və Qeydlər hazırkı Maliyyə Hesabatlarının tərkib hissəsidir*

**“ATİLLA TRANS SERVİCES A” QSC**
**MƏCMU GƏLİRLƏR VƏ ZƏRƏR HAQQINDA HESABAT**

*31 dekabr 2024-cü il tarixinə* *Azərbaycan Manatı ilə*

| | Qeyd | 2024 il | 2023 il |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 21 | 2 875 799,85 | 1 605 706,74 |
| Satışın maya dəyəri | 24 | - | - |
| **Satışdan mənfəət (zərər)** | | - | - |
| Əməliyyat xərcləri | 24 | 2 820 454,82 | 1 561 331,86 |
| **Əməliyyat mənfəəti (zərəri)** | | 55 345,03 | 44 374,88 |
| Maliyyə gəlirləri | | - | - |
| Maliyyə xərcləri | 26 | - | - |
| Fövqəladə gəlirlər | 25 | - | - |
| Fövqəladə xərclər | 25 | - | - |
| Vergitulmadan əvvəl mənfəət (zərər | 27 | 55 345,03 | 44 374,88 |
| Mənfəət vergisi xərci | 27 | 11 069,01 | 8 874,98 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 27 | **44 276,01** | **35 499,90** |

AZƏRBAYCAN RESPUBLİKASI Qapalı Səhmdar Cəmiyyəti ATİLLA TRANS SERVİSES A Closed Joint Stock Company AZERBAIJAN REPUBLIC

Xəlilzadə İsmayıl Xeybər oğlu
Qanuni təmsilçi
18 mart 2025-ci il

**"ATİLLA TRANS SERVİCES A" QSC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI**

*31 dekabr 2024-cü il tarixinə* *Azərbaycan Manatı ilə*

| | Qeyd | 2024-cü il | 2023-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə mənfəət /zərər | 27 | 55 345,03 | 44 374,88 |
| Mənfəət vergisi üzrə xərclər | 27 | (11 069,01) | (8 874,98) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Əsas vəsaitlərin amortizasiyası | 7 | 2 278 810,23 | 239 331,96 |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | | | 1 212,00 |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | **2 323 086,25** | **276 043,86** |
| • Ehtiyatlar üzrə artım/azalma | 10 | 79 651,33 | (587 134,58) |
| • Qısamüddətli debitor borclarında artım/azalma | 11 | (358 084,45) | (243 193,85) |
| • Kapitallaşma üçün aktivlərdə artma/azalma | 18 | | |
| • Sair qısamüddətli aktivlərdə artım/azalma | 12 | 12 116,91 | (37 843,66) |
| • Gələcək dövrün xərcləri | 12 | | |
| • Qısamüddətli kreditor borclarında artım /azalma | 17 | 6 573 317,25 | 4 245 210,05 |
| • Sair qısamüddətli öhdəliklər üzrə | 18 | | |
| • Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəs-nin fövqaladə daxilomaları və xaricolmaları | | 19 137,51 | 3 755 994,61 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **6 326 138,55** | **7 133 032,57** |
| Əsas vəsaitlərin alınması/silinməsi | | (8 662 439,39) | (7 643 747,39) |
| QMA alınması üçün | | | (6 060,00) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşu | | | |
| Alınmış bank kreditləri üzrə | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması) | | **(13 214,59)** | **(240 730,96)** |
| İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları | 13 | **66 986,87** | **307 717,83** |
| İlin sonuna pul vəsaitləri və bank overdraftları | 13 | **53 772,28** | **66 986,87** |
| **İl ərzində artım (azalma)** | | **(13 214,59)** | **(240 730,96)** |

ATİLLA TRANS SERVİSES A

Xəlilzadə İsmayıl Xeybər oğlu
Qanuni təmsilçi
18 mart 2025-ci il

*10-24-cı səhifələrdə göstərilən Şərhlər və Qeydlər hazırkı Maliyyə Hesabatlarının tərkib hissəsidir*

**“ATİLLA TRANS SERVİCES A” QSC**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

*31 dekabr 2024-cü il tarixinə* *Azərbaycan Manatı ilə*

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital eht-ları | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | 10,00 | - | 10,00 |
| 2022-ci il üzrə xalis mənfəət (zərər | | - | - | - |
| Mülkiyyətçilərin kapital qoyuşları | | 2000,00 | - | 2010,00 |
| Silinmişdir | | 10.00 | - | - |
| **31 dekabr 2023-ci il tarixə qalıq** | 19/20 | 2000,00 | - | 2010,00 |
| 2023-cü il üzrə xalis mənfəət (zərər | | - | - | - |
| Mülkiyyətçilərin kapital qoyuşları | | - | - | - |
| Bölüşdürülməmiş mənfəət | | - | - | - |
| Silinmişdir | | - | - | - |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | 19/20 | 2000,00 | - | 2000,00 |

Xəlilzadə İsmayıl Xeybər oğlu
Qanuni təmsilçi
18 mart 2025-ci il